Akademik Məhərrəm Babayev torpaqşünaslıq sahəsində özünü yüksəkixtisaslı genetik torpaqşünas alim kimi göstərmişdir. O, 1937-ci il yanvarın 13-də Bərdə şəhərində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirdikdən sonra Azərbaycan SSR Torpaqşünaslıq və Aqrokimya İnstitutunda əmək fəaliyyətinə başlamışdır. 1963-1966-cı illərdə institutun əyani şöbəsində aspirant kimi təhsilini davam etdirmişdir. 1966-cı ildə aqrar namizədlik dissertasiyasını, 1981-ci ildə isə Moskva şəhərində Dokuçayev adına Torpaqşünaslıq İnstitutunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 2001-ci ildə professor elmi adını almışdır. 2011-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.



# Görkəmli torpaqşünas alim

1981-1985-ci illərdə Elmi-Tədqiqat Tərəvəzçilik İnstitutunun direktoru, 1986-1989-cu illərdə Azərbaycan Aqrar Sənaye Komitəsinin elmi təminat üzrə sədr müavini, 1989-1994-cü illərdə Tərəvəzçilik İnstitutunda laboratoriya rəhbəri işləmişdir.

2001-ci ildən 2014-cü ilə kimi AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru vəzifəsində çalışmışdır. 1995-ci ildən AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun torpaqların genezisi, coğrafiyası və kartoqrafiyası laboratoriyasının müdiri vəzifəsində çalışır.

Onun elmi fəaliyyəti Azərbaycan torpaqlarının genezisi, təkamülü, təsnifatı, nomenklaturası, taksonlar sistemi, coğrafi yayılması, xəritələşdirilməsi, torpaq deqradasiyası, onların bərpası və kənd təsərrüfatında səmərəli istifadəsi, torpaqcoğrafi informasiya bazasının yaradılması məsələlərini əhatə edir. Məhərrəm Babayev tədqiqatlarında insanın torpağa antropogen təsiri, torpaqda gedən dəyişikliklər, onların deqradasiyası problemlərinə xüsusi diqqət yetirmiş, ilk dəfə bu torpaqların beynəlxalq standartlara uyğun təsnifatını, diaqnostikasını hazırlamış və nəşr etdirmişdir. O, ilk dəfə quru subtropik zonanın suvarılan torpaqlarını müstəqil tip kimi ayırmış və əsaslandırmışdır. "Azərbaycan torpaqlarının morfogenetik profili" monoqrafiyası çoxillik tədqiqat işlərinin nəticəsi olaraq hazırlanmışdır. AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda, xüsusən torpaqların genezisi, coğrafiyası və xəritəçiliyi labarotariyasında M.Babayevin rəhbərliyi altında vacib problemlərin həllinə yönəldilmiş tədqiqatlar aparılır və mühüm nəticələr əldə edilir.

Hər kəsin hörmətlə yanaşdığı, dərin rəğbət bəslədiyi elm xadimi 350-dən çox elmi əsərin, 11 patentin müəllifidir və 17 fəlsəfə, 4 elmlər doktoru hazırlamışdır. O, elmi məqalələri ilə beynəlxalq mətbuatda ABŞ, Fransa, İtaliya, Rusiya, Türkiyə, İran və MDB-yə üzv olan ölkələrdə torpaqşünaslıq elmini layiqincə təmsil etmişdir.

Əməksevərlik, qayğıkeşlik, səmimiyyət, yüksək əxlaq - bütün bunlar ictimai işlərdə də fəal olan alimin xarakterini səciyyələndirən xüsusiyyətlərdir. Elmi kadrların hazırlanması, torpaqşünaslıq elminin inkişafı sahəsində göstərdiyi səylərə görə Məhərrəm müəllim ictimaiyyətin dərin hörmət və ehtiramını qazanıb.

M.Babayev Ümumdünya Torpaqşünaslar Cəmiyyətinin üzvü, AMEA Biologiya və Tibb Elmləri Bölməsinin büro üzvüdür. Azərbaycan Respublikası Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutundakı fəaliyyətinə, elmin inkişafı və yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətlərinə görə, dövlət tərəfindən əməyi yüksək qiymətləndirilərək 1986-cı ildə Şərəf nişanı ordeni, 1987-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərmanı", 1997 və 2006-cı illərdə AMEA-nın Fəxri Fərmanı ilə təltif olunmuşdur. 2017-ci ildə Azərbaycan torpaqlarının morfogenetik diaqnostikası, nomenklaturası, mühafizəsi və təsnifatı üzrə silsilə monoqrafiyaların nəşrinə görə AMEA-nın "Həsən bəy Zərdabi" adına mükafatına layiq görülmüşdür.

**Əlövsət QULİYEV,**
**AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü.**